**“Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun tətbiqi və “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 629 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 3, maddə 209; 2002, 3, maddə 148, 10, maddə 635; 2005, 7, maddə 678; 2006, 5, maddə 472, 10, maddə 902; 2010, 3, maddə 264; 2012, 12, maddə 1360; 2014, 12, maddə 1662; 2017, 12 (II kitab), maddə 2526; 2018, 12 (II kitab), maddə 2737; 2019, 8, maddə 1478) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4 nömrəli əlavəyə aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 10-1 | Qohumluq əlaqəsi haqqında məlumat – (babası və (və ya) nənəsi ümumi olanlar) | əmioğlu | əmiqızı |
| | | dayıoğlu | bibiqızı |
| | | bibioğlu | dayıqızı |
| | | xalaoğlu | xalaqızı |
| | | yoxdur | yoxdur |

2. 7 nömrəli əlavəyə aşağıdakı məzmunda 9-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 9-1 | Qohumluq əlaqəsi haqqında məlumat – (babası və (və ya) nənəsi ümumi olanlar) | əmioğlu | əmiqızı |
| | | dayıoğlu | bibiqızı |
| | | bibioğlu | dayıqızı |
| | | xalaoğlu | xalaqızı |
| | | yoxdur | yoxdur |

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 23 iyun 2020-ci il
214